# Azərbaycanda arıçılıq turizmi...

**Turizm dünyanın əksər ölkələrinin iqtisadiyyatında getdikcə daha böyük əhəmiyyət kəsb edir. Müxtəlif ölkələr bu sahədə mövcud imkanlardan maksimum yararlanmağa çalışırlar. Kənd yaşıl turizmi də səyahət həvəskarları arasında populyarlıq qazanmaqdadır.**

## *"Azərbaycanda arıçılığın tarixi kökləri və ənənələri var"*

## *Çingiz İsmayılov: "Arıçılıq turizmini ölkədə inkişaf etdirmək olar, bunun üçün..."*



Təbii-coğrafi potensial və tarixi-mədəni obyektlərlə yanaşı, kənd yaşayış məntəqələrinin imkanlarından istifadə edilməsi əsasında bu turizm növü geniş yayılır. Bu sahə kəndlərin və kənd təsərrüfatının inkişafına, sosial-mədəni xidmət sahələrinin yaradılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və gəlirlərinin artmasına da müsbət təsir göstərir.

Böyük şəhərlərdən gələn insanlarda adi kənd evində yaşayıb istirahət etmək arzusu olur. Buna "kənd turizmi" və ya "aqroturizm" də deyilir. Bəllidir ki, bu gün ölkədə turizmin əsas qollarından biri olan aqrar turizmin inkişaf etməsi istiqamətində müəyyən işlər görülür.

Aqrar turizmin sahələrindən biri də arıçılıqdır. Arıçılıq Azərbaycanda ən qədim təsərrüfat sahələrindən biri hesab olunur.

Turizmi inkişaf etdirmək üçün aqrar turizmin sahələrindən biri olan arıçılıq turizminin Azərbaycanda yaradılması təklif olunur. Azərbaycan Arıçılar Assosiasiyası BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO ilə birlikdə ölkədə arıçılıq turizminin yaradılması ilə bağlı layihə həyata keçirməyi planlaşdırır. Bu barədə assosiasiyanın sədri Bədrəddin Həsrətov media nümayəndələrinə məlumat verib. O qeyd edib ki, bu ilin yay aylarında reallaşdırılması nəzərdə tutulan layihəyə Avropa İttifaqı maliyyə dəstəyi vermək istəyir: "Layihə çərçivəsində Qax rayonunda olan arıçılıq təsərrüfatının bazasında bir sıra işlərin görülməsi planlaşdırılır. Arıçılıq turizminin mahiyyəti odur ki, turistlərə bal və digər arıçılıq məhsullarının istehsalı prosesini izləmək şəraiti yaradılır".

**Arıçılıq turizminin ölkədə inkişafı istiqamətində nə kimi işlər görülməlidir? Məsələ ilə bağlı turizm sahəsi üzrə ekspert Çingiz İsmayılova müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qeyri-ənənəvi turizm sahələrinə diqqət yönəltmək lazımdır: "Arıçılıq turizmini ölkədə inkişaf etdirmək olar. Ancaq bunun üçün bəzi detalları nəzərə almaq lazımdır. Arıçılığın hansı bölgədə inkişaf etdirilməsi dəqiq araşdırılmalıdır. Həmin bölgə elə bir zona olmalıdır ki, turist ora gəlməkdə maraqlı olsun. Həmçinin, turist tək arı pətəyinə baxmamalıdır, eyni zamanda, arıçının pətəyə necə qulluq etməsi barədə məlumat da əldə etməlidir. Arıçılıq turizmini inkişaf etdirmək üçün arıçılıqla bağlı broşurlar hazırlanmalıdır. Xarici və yerli informasiya portallarında Azərbaycanda arıçılıq təsərrüfatı ilə bağlı məlumat yayılsın".

**Həmsöhbətimiz onu da vurğuladı ki, arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan təhlükəsiz növlərindən biridir. Ərzaq məhsullarının təhlükəsizliyi məsələlərinin qlobal əhəmiyyət daşıdığı müasir dövrümüzdə arıçılığın inkişafının labüdlüyü xüsusilə diqqəti cəlb edir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda arıçılığın tarixi kökl?ri və ənənələri var.**

***Günel CƏLİLOVA***